# İnsandakı hər bir oynaq sümüyünə görə sədəqə vermək lazımdır

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "İnsanın oynaqlarından hər biri üçün bir sədəqə vardır. Günəşin doğduğu hər gün iki insanın arasında ədalətlə hökm verməyin sədəqədir. Bir kişiyə öz miniyinə minməkdə yardım etməyin və ya onun əşyasını qaldırıb miniyinin üzərinə qoymağın sədəqədir. Gözəl söz sədəqədir. Namaz qılmağa getdikdə atdığın hər bir addım sədəqədir. Yoldan insanlara əziyyət verən şeyi kənarlaşdırmağın sədəqədir".

[Səhih] [رواه البخاري ومسلم]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər bir mükəlləf müsəlmanın sağlam olduğu üçün və bədən üzvlərinin yığılıb-açılması üçün sümüklərində oynaqlar yaratdığına görə Allaha şükür olaraq hər gün hər sümük birləşməsinin sayı qədər Allaha könüllü olaraq sədəqə verməsi lazım olduğunu bəyan edir. Bu sədəqə bütün yaxşı əməllərlə həyata keçirilir və yalnız pul verməklə olmur, bu əməllərdən: Sənin ədalətli olmağın və münaqişə edən iki tərəfin arasını islah etməyin sədəqədir. Aciz olan bir kəsə yardım edib onu heyvanın üzərinə mindərməyin və ya onun əşyalarını qaldırmağın sədəqədir. Zikr, dua, salam və digər xoş sözlər sədəqədir. Namaza doğru (məscidə gedərkən) atdığın hər addım sədəqədir. Yolda əziyyət verən bir şeyi yoldan götürmək sədəqədir.

https://sunnah.global/hadeeth/az/show/66527

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee